# MƏNİM TANIDIĞIM İSA HƏBİBBƏYLİ AZƏRBAYCAN ELMİNƏ MİSİLSİZ TÖHFƏLƏR VERMİŞ GÖRKƏMLİ ALİM YÜKSƏK MƏNƏVİ KEYFİYYƏTLƏRİ İLƏ DƏ MÜSTƏSNA ŞƏXSİYYƏTDİR

İyirminci yüzillikdə Azərbaycan ədəbiyyatı tarixini araşdıran, ədəbi-tənqidi fikrini formalaşdıran, ona ictimai yön verən Bəkir Çobanzadə, Feyzulla Qasımzadə, Əli Sultanlı, Əkrəm Cəfər, Məmməd Cəfər Cəfərov, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Məmməd Arif Dadaşzadə, Cəfər Xəndan, Abbas Zamanov kimi görkəmli ədəbiyyatşünas alimlərimiz, böyük ziyalılarımız olublar. Bu gün o zəngin ənənəni uğurla davam etdirən orta yaş nəslinə mənsub ədəbiyyatşünas alimlərimiz arasında öz yüksək intellektual səviyyəsi, geniş dünyagörüşü ilə fərqlənən sanballı fikir adamlarından biri də Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Əməkdar elm xadimi, millət vəkili, akademik İsa Həbibbəylidir.

Azərbaycan ədəbiyyatşünaslığının, ədəbi tənqidinin təxminən yarım əsrə yaxın tarixinə nəzər salanda orada akademik İsa Həbibbəyli imzasının nə qədər mötəbər, çoxşaxəli və miqyaslı bir məna ifadə etdiyi bir daha aydın olur. Akademik İsa Həbibbəyli ədəbi təhlillərində zəngin intellekti, hadisələrə əhatəli və özünəxas yanaşma üslubu, müasir və aktual düşüncə tərzi ilə həmişə diqqət mərkəzində olan nadir ədəbiyyatşünaslarımızdandır. Düşünürəm ki, belə bir dəyərli elm adamının, zəngin mənəviyyata, yüksək insani keyfiyyətlərə malik alimin həyatının müəyyən anlarının şahidi olmağın özü də sevindirici və qürurvericidir.

1973-cü ilin payızı, səhv eləmirəmsə, sentyabr ayının axırları idi. Naxçıvan Dövlət Universitetinin dil-ədəbiyyat şöbəsinə təzəcə qəbul olunmuşdum. Bir gün auditoriyaya daxil olan müəllimimiz - mərhum İbrahim Salayev 3-5 dəqiqəlik ünsiyyətdən sonra belə bir söhbət başladı. Hiss olunurdu ki, indi danışacağı hadisə onu əməlli-başlı heyrətləndirmişdi. "Bu səhər İsadan məktub almışam" deyib söhbətə giriş verdi (həmin vaxtlar universitetin gənc aspirantı İsa Həbibbəyli ordu sıralarında xidmətdə idi): "Zərfi açdım, zərfin içindən mənim bir müddət əvvəl İsaya yazdığım məktub çıxdı. Məəttəl qaldım. Axı, bu necə ola bilərdi? Sonra başladım öz məktubumu oxumağa. Nə görsəm yaxşıdır? Gördüm ki, İsa mənim ona yazdığım məktubun orfoqrafik səhvlərini qırmızı qələmlə bir-bir düzəldib, təkrar mənə göndərib. Xeyli müddət heyrət içində qaldım".

Bütün auditoriya içini çəkib İbrahim müəllimə diqqət kəsilmişdi. Doğrudan da, qeyri-adi bir hal idi.

Mənim gənc aspirant İsa Həbibbəyli ilə ilk qiyabi tanışlığım belə yarandı. Bu kiçik detal hətta adi bir yazışmada da, dilimizə, dilimizin daşıdığı qayda-qanunlara belə həssalıqla yanaşan bir gəncə qarşı rəğbət yaratmaqla yanaşı, onun timsalında gələcəkdə ciddi bir elm adamının yetişəcəyinə böyük inamın əsasını qoymuş oldu.

Akademik İsa Həbibbəyli bu gün yüksək titullara sahib çox qiymətli ədəbiyyatşünas alimdir, bir çoxları onu məhz belə tanıyır. Amma İsa müəllimin hansı yüksək mənəvi xüsusiyyətlərə, nadir insani keyfiyyətlərə malik bir şəxsiyyət olduğundan, yəqin ki, çox adam xəbərsizdir. Amma ötəri bir ünsiyyət də kifayətdir ki, onun nə qədər sadə, səmimi, qayğıkeş və canayaxın bir insan olduğunu görəsən.

Yenə söhbətin əvvəlinə qayıdıram. Gənc aspirant İsa Həbibbəyli hərbi xidmətini başa vurub universitetə geri döndü və bizim kursda seminarlar aparmağa başladı. Zəngin savadı, yüksək səviyyəli elmi təhlil qabiliyyəti gənc aspirantı qısa müddətdə auditoriyaya sevdirdi.

Xeyli vaxt idi, universitetdə "Dan ulduzu" ədəbi dərnəyi fəaliyyət göstərirdi. Dərnək öz ətrafında bir çox tələbəni - gənc şair və yazıçını toplaya bilmişdi. Dərnəkdə bəyənilən bədii nümunələrdən seçmələr yerli qəzetdə dərc olunur, televiziyada səsləndirilirdi. Həmin dərnəyə xeyli müddət İsa müəllim rəhbərlik etdi.

Dərnəyin məşğələlərində İsa müəllim oxunan bədii yazılara diqqətlə qulaq asır, əvvəl iştirakçıların fikirlərini dinləyər, sonda isə özü yekun söz söyləyərdi, obyektiv, qərəzsiz şəkildə

tənqidi fikirlərini bildirirdi. Biz İsa müəllim özünün də şeirlər yazdığını bilirdik, amma o, təvazökarlıq edib özü dərnəkdə heç vaxt şeir oxumurdu. O illər Naxçıvan yazıçılarının əsərlərinin toplandığı ədəbi almanaxlarda İsa müəllimin də imzası özünə layiqli yer tutardı. Bu günlərdə "Azərbaycan" jurnalının doqquzuncu-sentyabr nömrəsi ilə tanış olarkən elə ilk səhifədə İsa müəllimin şeirləri ilə qarşılaşdım. Şeirlərdən əvvəl yazdığı məqalədə şeir yaradıcılığı ilə bağlı bəzi fikirləri də yer almışdı. İsa müəllimin o məqaləsindən belə bir fikir ortaya çıxırdı ki, bütün bu illər ərzində vaxtının əsas hissəsini elmi yaradıcılığa həsr eləsə də, poeziyaya da biganə qalmayıb, yeri gəldikcə bədii yaradıcılıqla da məşğul olub. Bu isə, şübhəsiz, İsa müəllimin içində poeziyaya olan tükənməz sevgidən irəli gəlir. Yəqin elə o səbəbdəndir ki, digər ədəbiyyatşünas alimlərdən fərqli olaraq İsa müəllimin elmi yaradıcılığında həmişə poetik çalar özünü göstərib və təbii ki, bu detal onun yaradıcılığına həmişə xüsusi rəng qatıb.

Bu gün Azərbaycanda öz imzası ilə tanınan bir çox şair və yazıçı həmin dərnəkdə məhz İsa müəllimin tövsiyə və məsləhətləri ilə püxtələşərək, ədəbi təcrübə qazanıblar.

Yaxşı xatırlayıram, 90-cı illərin ortaları idi. Naxçıvan Yazıçılar Birliyində şairlərdən Əhməd Mahmud və Kəmalə Ağayevanın yubiley tədbiri keçirilirdi. İsa müəllimlə yanaşı oturmuşduq. O, çıxışlara diqqətlə qulaq asır, dinləyə-dinləyə arabir kiçik kağız parçasına nəsə qeydlər edirdi. Bir-iki çıxışdan sonra söz İsa müəllimə verildi. İsa müəllim çıxış etdikcə arabir əlindəki o kağız parçasına nəzər salırdı.

Diqqətlə baxanda gördüm ki, danışacağı ayrı-ayrı məsələlər xırda cümlələrlə bir-bir o kiçik kağız parçasında qeydlər şəklində sıralanıb. İsa müəllim toxunduğu məsələlər barədə ardıcıl və olduqca məntiqli danışırdı. Bəli, o illərdən sonra çox sular axıb, amma o suların axışı heç vaxt yadımdan çıxmır.

Akademik İsa Həbibbəylinin 1974-cü ildən başlayan, "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik, "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda doktorluq dissertasiyaları ilə davam edən elmi fəaliyyəti zaman-zaman daha da genişlənərək zəngin ənənələrə malik Azərbaycan ədəbiyyatşünaslığının bir çox gizlinlərinə işıq salıb, görkəmli alim yeni-yeni elmi fikirləri ilə bu sahəni daha da inkişaf etdirib. Toxunduğu hər bir məsələyə elmi yanaşmada özünəməxsusluğu ilə seçilən akademik İsa Həbibbəyli həm də novatorluğu ilə fərqlənib.

Bu günə qədər böyük zəhmət, gərgin elmi axtarışlar nəticəsində ərsəyə gətirilmiş, müxtəlif mövzulara həsr edilmiş 1400-dən çox məqalənin, xaricdə çap olunmuş 212 elmi əsərin, 90-dan çox kitabın müəllifi olan akademik İsa Həbibbəyli irili-xırdalı bütün əsərlərində tədqiq etdiyi məsələlərə bir qayda olaraq müasirlik prizmasından yanaşmaqla Azərbaycan ədəbiyyatşünaslığına misilsiz töhfələr verib. Onun Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Məhəmməd Ağa Şahtaxtı, Səməd Vurğun və digər böyük simalara həsr edilmiş irihəcmi əsərləri ədəbiyyat tariximiz üçün böyük və əvəzolunmaz elmi nümunələrdir.

Elmi fəaliyyətinin Naxçıvan dövrü akademik İsa Həbibbəyli yaradıcılığında xüsusi önəm daşıyır. Ədəbiyyatşünas alim bu qədim diyarın elmi və mədəni mühiti haqqında ciddi araşdırmalar apararaq, Naxçıvan ədəbi mühitinin yaranma tarixi, onun inkişaf mərhələləri ilə bağlı "Nuhçıxandan-Naxçıvana" adlı sanballı elmi əsər ortaya qoyub.

Bu günəcən 29 elmlər namizədi, 4 elmlər doktoru yetişdirən, yeni nəsilə xüsusi diqqət və qayğı göstərməsi ilə seçilən akademik İsa Həbibbəylini həm də gəncliyin böyük dostu adlandırmaq olar. Həmişə hər kəsə açıq olan qapısı kimi İsa müəllimin ürəyi də hər kəsə açıqdır. Hər kəs bu qapıdan keçib öz qayğılarını ona çəkinmədən anlada bilər.

Bütün bunları nəzərə aldıqda bizə, yalnız, belə bir insana ürəkdən alqış etmək düşür: Allah üstünüzdə yar olsun, xeyirxah və qayğıkeş insan - hörmətli İsa müəllim!..

**Məmməd Tahir,**
**AYB-nin üzvü**

*//525-ci qəzet.- 2022.- 15 oktyabr.- S.11.*